**UOT 7(091); 7.03**
**https://doi.org/10.59849/2218-4783.2025.1.297**

**ŞƏMSİYYƏ ZALOVA**

# BƏHRUZ BƏY KƏNGƏRLİNİN TARİXİ ƏHƏMİYYƏTLİ MƏNZƏRƏ RƏSMLƏRİNİN ÖZÜNƏMƏXSUSLUĞU

*Böyük istedada malik olan, məhsuldar yaradıcılığı ilə seçilən Bəhruz bəy Kəngərli Azərbaycan boyakarlıq sənətində yeni cığır açmış, onu yeni məzmun, yeni forma və bədii təsvir vasitələri ilə zənginləşdirmişdir. Rəssam təsviri sənətin bir çox janrında çalışmış, ərsəyə gətirdiyi əsərləri ilə fərdi yaradıcılığının özünəməxsusluğunu sərgiləyə bilmişdir. Bəhruz bəy Kəngərlinin bədii irsinə daxil olan əsərlərinin böyük əksəriyyətini mənzərə janrında çəkdiyi rəsmlər təşkil edir. Çünki rəssam həyatı boyu Naxçıvan torpağının ecazkarlığından ilham alaraq, bu gözəl məkanı öz əsərlərində böyük məhəbbətlə təsvir etmişdir. Beləliklə, rəssam mənzərə yaradıcılığı ilə Azərbaycan incəsənət tarixində təbiət təsvirini dar çərçivədən çıxarmış, onu müstəqil və əhəmiyyətli janr səviyyəsinə qaldırmışdır. Bəhruz bəy Kəngərlinin "Möminə xatın türbəsi", "Nuhun məzarı", "Köhnə qala", "Sınıq minarəli məscid" kimi tarixi əhəmiyyətli mənzərələri isə ideya-məzmununa görə rəssamın yaşadığı dövrün xarakterik ictimai-siyasi hadisələrini bilavasitə əks etdirməsi baxımından olduqca əhəmiyyətlidir.*

**Açar sözlər:** *Naxçıvan, Bəhruz bəy Kəngərli, rəssam, mənzərə, memarlıq abidələri.*

**Giriş.** XX əsrin əvvəllərində xalqın ictimai şüuru və mədəniyyətinin ümumi yüksəlişi, realist cərəyanın inkişafı ilə əlaqədar olaraq təsviri incəsənətdə də yeni bir dövr başlayırdı. İctimai ziddiyyətlərlə dolu həyat incəsənətin qarşısında böyük əhəmiyyəti olan elə vəzifələr qoymuşdu ki, köhnəlmiş rəssamlıq formaları vasitəsilə onları yerinə yetirmək mümkün deyildi. Beləliklə, yeni dövrlə köhnə incəsənət forması arasındakı uyğunsuzluq realist təsviri incəsənətə doğru sıçrayış əmələ gəlməsinə səbəb olurdu. Elə bu zaman adı XX əsrdə ixtisas təhsili alan ilk azərbaycanlılar sırasında çəkilən Bəhruz bəy Kəngərlinin sözün əsl mənasında milli rəssamlığımızda müxtəlif janrların yer almasında və yeni bədii ifadə vasitələri ilə zənginləşməsində mühüm xidmətləri olmuşdu.



**"Atabəyin türbəsi". 1919.**



**"Naxçıvanda xarabalıqlar". 1921.**

**Rəssamın mənzərə janrının inkişafında rolu.** Yeni keyfiyyətli incəsənətin əsasını qoymuş, öz yaradıcılığı ilə onun formalaşmasını və inkişafını təmin etmiş ilk rəssamlardan olan Bəhruz bəy Kəngərli eyni zamanda professional dəzgah boyakarlığının banisi sayılmış, plener boyakarlığın pioneri olmuşdur.

Rəssamın əsərlərində vətənpərvərlik və insanpərvərlik kimi nəcib hisslər əsas yer tutmuş, həyatla, xalqla bağlılıq onun əsərlərinin ideya məzmununu daha da dərinləşdirmişdir. Buna görə də rəssamın bu gün belə öz əhəmiyyətini itirməyən əsərləri xalqımızın zəngin bədii irsinin qiymətli nümunələridir.

Ümumilikdə Bəhruz bəy Kəngərlinin əsərlərini təhlil etdikdə onun məhsuldar yaradıcılığının çoxşaxəli olduğu açıq-aşkar göz önündə canlanır. Mənzərə, portret, məişət-tematik, natürmort kimi mövzularla yanaşı, səhnə tərtibatı da rəssamın yaradıcılığında öz əksini tapmışdır. Lakin rəssamın yaradıcılığının bənzərsizliyini və özünəməxsusluğunu təsdiqləyən bədii irsində onun doğma yurdunun ürəkaçan təbiətini əks etdirən əsərləri xüsusi yer tutur.

Hələ uşaq yaşlarından qapalı təbiəti və xəstəliyinə görə yaşıdlarına qoşulmayıb, bütün gününü təklikdə, təbiət qoynunda keçirməsi, bir tərəfdən rəssamın doğma diyarına olan məhəbbətini qüvvətləndirir, digər tərəfdən isə onun müşahidəçilik qabiliyyətini artırırdı. Elə buna görə də, zamanında Naxçıvan təbiətinin real görkəmini bədiiləşdirməklə, onun əslində tarixi əhəmiyyətli salnaməsini yaradan rəssamın yaradıcılığında Əcəmi yurdunun gözəlliyini əks etdirən əsərləri az deyil.

Rəssam təbiət təsvirlərini yalnız real və inandırıcı deyil, eyni zamanda qüvvətli daxili hisslərlə əks etdirirdi. Bu hiss rəssamın vətəninə sonsuz məhəbbətindən irəli gəlirdi. Tanrı onu dünyanın gözəl səslərini eşitməkdən məhrum etsə də, təbiətdəki əlvan rəngləri görmək və duymaq rəssama bəxş edilmiş xüsusi bacarıq idi.

Bəhruz bəy Kəngərli gördüyü aləmi öz rəngləri ilə təsvir etdiyini etiraf edir, bəzən çəkərkən istədiyinə nail ola bilmədiyi üçün çox çalışdığını etiraf edirdi. "Mən gördüyüm bu qəribə aləmi rənglərlə təsvir edirəm. Ancaq yenə də çəkdiyim şey eyni ola bilmir. Mən çalışıram elə rəsm çəkim ki, o, həmin şeyin eyni ola bilsin" [6, s. 21].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Bəhruz bəy Kəngərliyə qədər Azərbaycan rəssamlığında mənzərə təsvirləri müstəqil sənət əsəri kimi qəbul edilmirdi [7, s. 231]. Azərbaycan təsviri incəsənətinin inkişaf tarixini nəzərdən keçirdikdə təbiət təsvirlərinin yalnız miniatür boyakarlıqda əhəmiyyətli yer tutduğunu deyə bilərik. Bəzən isə bu cür motivlər ayrı-ayrı əsərlərdə ancaq yardımçı ünsür, rəsmin məzmununu aydınlaşdıran yerlik fon rolunu oynayırdı. Məsələn: miniatür boyakarlıqda və divar rəsmlərində təbiət təsvirləri müstəqil lövhə, xüsusi janr şəklində olmamış, həmişə obraz və süjetin ifadəsinə kömək edən, hadisənin vaqe olduğu şəraiti və yeri izah edən, konkretləşdirən bir vasitə rolunu oynamışdır. Bəhruz bəy Kəngərliyə qədər olan dövrdə yaradılmış bir-neçə mənzərə rəsmini təhlil etdikdə isə görürük ki, bu rəsmlər çox sadə və sxematik formada həll edilmişdir. Buna görə də, rəssamın sənətimizə gətirdiyi ən böyük yeniliklərdən biri elə bundan ibarətdir ki, o, mənzərə təsvirini dar çərçivədən çıxarmış, müstəqil və əhəmiyyətli janr səviyyəsinə qaldırmışdır.

Bəhruz bəy Kəngərli bədii forma və zəngin rəng hissiyyatına malik rəssam idi. Onun mənzərə rəsmlərində canlı naturanın xassələri, boyaları, işıq-kölgə münasibətləri, formanın plastikası realist səpkidə ifadə olunmuşdur. Bu xüsusiyyətlər realizm üslubunun canlılığını, ifadə gözəlliyini təmin edən başlıca keyfiyyətlərdəndir.

Rəssam haqqında çap olunmuş ilk tədqiqatın müəllifi M.Nəcəfov 1957-ci ildə işıq üzü görmüş "Bəhruz Kəngərli" kitabında yazır: "Bəhruz, bir qayda olaraq, mənzərələrini kiçik ölçüdə çəkirdi. İstər yağlı boya ilə, istərsə də akvarel boyalarla çəkdiyi şəkillər, ölçülərinin kiçikliyindən asılı olmayaraq, çox zaman tamaşaçıda bitkin mənzərə əsərindən alınan təsiri oyadır. Onun kiçik ölçülü mənzərələri qısa müddətdə çəkilən etüd xarakteri daşısa da, hər şeydən əvvəl, müəyyən məqsəd güdür. Onu təbiətdən aldığı ötəri təsir məşğul etmir, o, həyatda rast gəldiyi ani dəyişikliklərə laqeyd baxmır. Əksinə, təbiətin ən adi bir vəziyyətindən doğan təsirdə belə məna görür, bu mənanı əhvalruhiyyəsinə uyğun bir surətdə ifadə edir".

Beş il sonra isə K.Kərimov "Bəhruz Kəngərli" kitabında bu məsələyə öz münasibətini belə ifadə edir: "Bəhruz bu mənzərələri adətən kiçik ölçülü kağız və kətan parçalarında çəkirdi. Lakin həmin əsərlərin əksəriyyəti, ölçülərinin kiçikliyinə baxmayaraq, bədii və texniki ifaçılıq cəhətdən tamamlanmış mənzərə təsiri oyadır. Çünki bu kiçik kompozisiyalarda rəssam təbiətdən aldığı ötəri təəssüratını deyil, müəyyən bir yerin bədii obrazını əks etdirməyə çalışırdı. Buna görədir ki, Bəhruz Kəngərlinin əsərlərinə mücərrəd bir mənzərə kimi baxmaq olmaz. Onun hər bir əsəri müəyyən konkret bir təbiət guşəsinin rəssam tərəfindən bədii surətdə ümumiləşdirilmiş obrazı, portretidir" [5, s. 162-163].

Qeyd etməliyik ki, rəssam tarixi memarlıq abidələrimizin əks olunduğu tabloları üçün digər rəsmləri ilə müqayisədə böyük ölçü seçib. Düşünürük ki, rəssamın bilavasitə Naxçıvan tarixi və memarlığı ilə bağlı olan bu əsərləri üçün iri formatın seçilməsi də məqsədli olub. Başqa sözlə desək, o, Əcəmi təxəyyülünün nəticəsi olan memarlıq incisinin, eləcə də digər tarixi və dini abidələrin zamanında daşıdıqları səciyyəvi görüntülərin gələcək nəsillərə olduğu kimi ötürülməsi məqsədilə iri formata və nisbi detallaşdırmaya müraciət edib [5, s. 170].

**Rəssamın tarixi əhəmiyyətli mənzərələrinin üslub xüsusiyyətləri.** Çox qısa ömür yolu qarşılığında danılmaz dərəcədə məhsuldar işləyən və özünün çoxşaxəli fəaliyyəti ilə əsl sənətkar adı qazanan Bəhruz bəy Kəngərlinin əsərlərini milli təsviri sənətimizdə qiymətli irs saymaq olar. Çünki Bəhruz bəyin Naxçıvanın iyirminci yüzilliyin əvvəllərində daşıdığı və bu gün mövcud olmayan görüntülərinin gələcək nəsillərə ötürülməsində mühüm rolu olmuşdur. Həm tələbəlik dövründə, həm də təhsil sonrası illərdə doğma şəhərin çoxlarına adi görünən müxtəlif guşələrini dolaşmaqdan

usanmayan gənc rəssam onun bu gün hamının tarixi tutumlu qəbul etdiyi rəngkarlıq və qrafika əsərlərini yaratmağa nail olmuşdur.

Bəhs olunan əsərlərin bir qisminin rəssamın hazırladığı "Naxçıvan yadigarı" albomuna daxil edilməsini təbii saymaq olar. Belə ki, rəssamın əhali arasında yaydığı bu alboma daxil edilən rəsmlərin bir çoxunu tarixi əhəmiyyətli mənzərələri təşkil edir. "Atabəy məqbərəsi", "İmamzadə", "Atababa günbəzi", "Köhnə qala", "Nuhun qəbri", "Şəhər məscidi", kimi tarixi tikililərin rəsmləri bu albomda yer alır. Bəhruz bəyin bədii irsində xüsusi əhəmiyyətə malik olan bu albomda sənətkar bir tərəfdən öz rəssamlıq istedadını nümayiş etdirmiş, digər tərəfdən isə vətəninin gözəlliklərini və tarixi memarlıq abidələrimizi təbliğ etmişdir.

Qeyd olunduğu kimi rəssam tez-tez təbiət qoynunda olur, memarlıq abidələrimizin əsrarəngiz gözəlliklərindən zövq alıb mənəvi duyğulara qovuşur, fırçasını əlinə alıb saatlarla molbertinin önündə dayanıb, bu abidələri kağız, kətan üzərinə köçürürdü. Rəssam maraqlı obyektlər tapır, eyni abidəni günün müxtəlif saatlarında, fərqli rakurslarda çəkirdi. Rəssamın mənzərə əsərləri üçün səciyyəvi olan bu xüsusiyyətlər onun yaradıcılığının bir tərəfdən təbiət təsviri sahəsində olan milli ənənələrə, digər tərəfdən isə rus boyakarlıq məktəbinin realistik ənənələrinə əsaslanaraq inkişaf etdiyini göstərir.

Rəssam akvarel texnikasında işlənmiş "Möminə-xatın", "Yusif Küseyir oğlu", "Nuhun məzarı", "İmamzadə", "Naxçıvanda məscid", "Naxçıvanda xarabalıqlar" kimi bir-birindən baxımlı, uğurlu rəsmlər yaratmışdır. Realizm ənənələrinə sadiq qalan rəssam bu rəsmləri ilə qrafika janrını istər forma, istərsə də məzmun cəhətdən zənginləşdirməyə nail olmuşdur. Sulu boya ilə çəkilməsinə baxmayaraq onun bu qrafik təsvirləri bədii-estetik tutumuna görə yağlı boya ilə çəkilmiş boyakarlıq əsərlərindən heç də geri qalmır. Rəssamın dəzgah qrafikası tələblərinə cavab verən və mühüm əhəmiyyət kəsb edən bu rəsmlərində fərdi özünəməxsusluq mövcuddur.

Bəhruz bəy Kəngərli təsviri sənətin bir çox janrında çalışmış, ərsəyə gətirdiyi əsərləri ilə fərdi yaradıcılığının özünəməxsusluğunu sərgiləyə bilmişdir. Lakin mənzərə janrında çəkilmiş rəsmlər yalnız sayca çoxluğuna və bədii keyfiyyətinə görə deyil, tarixilik baxımından da başqa əsərlərindən fərqləndiyindən rəssamın yaradıcılığında əsas yer tutur.

Bəhruz bəy Kəngərlinin "Qaçqınlar" silsiləsinə daxil olan portretləri kimi memarlıq abidələrimizin məhv edilməsini təsvir edən rəsmləri də mövzu aktuallığına, reallığı əks etdirməsinə və psixoloji ifadəliliyinə görə fərqlənir. Rəssam didərgin ömrü yaşayan insanların acı taleyini, azərbaycanlıların öz tarixi torpaqlarından qovulmasını əks etdirməklə kifayətlənməmiş, günü-gündən uçurulan tarixi abidələrimizi də realist sənətçi müşahidəsi və fırçası ilə rəsm etmiş, bu mənzərələri gələcək nəsillərə çatdıra bilmişdir. Bəhruz bəyin bu qəbildən olan "Nuhun məzarı", "Sınıq minarəli məscid", "Əliabad kəndində dağıdılmış darvaza" kimi bir sıra əsərlərində artıq mənzərə təsvir edilən əsas süjet üçün fon rolunu oynayırdı. Rəssamın rəngləri isə sadəcə rəsmin emosional təsir gücünü artırmağa xidmət edirdi.

Tariximizi, milli mədəniyyətimizi yox etmək istəyənlərin qeyri-insani əməllərini görən müşahidəçi rəssam "Nuhun məzarı" adlı silsilə rəsmləri yaratmış, tarixi tikilinin qəsdli şəkildə dağıdılmasını nəzərimizə çatdırmışdır. Belə ki, rəssam tərəfindən təsvir edilən bu mənzərələr yerli tikilinin zamanın sərt sınağından çıxmamasının yox, qədim şəhərdə törədilən vəhşiliklərin bariz sübutudur.

Rəssamın bu əsərləri tematikası və ideya-məzmununa görə həmin dövrün xarakterik və aktual ictimai-siyasi hadisələrini bilavasitə əks etdirmişdir. Odur ki, Bəhruz bəy Kəngərli əslində tarixi əhəmiyyətli bir iş görməklə, yerli əhali tərəfindən yaşanan ağır anların memarlıq abidələrimizdə əks olunan izlərini gələcək nəsillərə ötürə bilmişdir. Ona görə də, onun bu əsərlərini bədii-tarixi əhəmiyyətli işlər adlandırsaq yanılmarıq.

Bəhruz bəy Kəngərlinin tarixi əhəmiyyətli mənzərələri arasında vaxtilə böyük bir memarlıq kompleksinin tərkib hissəsi olan "Möminə xatın türbəsi"nə həsr etdiyi əsərləri rəssamın yaradıcılığının ayrıca bir səhifəsini təşkil edir. Rəssam abidəni bəzən uzaqdan müşahidə edərək ümumi

mənzərəyə daxil etmiş, bəzən isə möhtəşəmliyini vurğulamaq üçün onu bütöv və üfüqi halda təsvir etmişdir.

Rəssamın 1920-ci ildə yağlı boya ilə fırçaya aldığı "Möminə xatın türbəsi" tablosunun öz ecazkarlığı ilə digər işlər arasından seçildiyini desək yanılmarıq. Bu rəsm ifaçılıq texnikası və bədii xüsusiyyətlərinə görə sənətkarın ən qüvvətli əsərlərindəndir. Bu tabloda abidənin həcminin və memarlıq formasının düzgün verilməsi, həmçinin havanın şəffaflığı, rənglərin təbiiliyi və ahəngdarlığı, işıq-kölgə və rəng keçidlərinin dəqiqliyi diqqəti cəlb edir. Rəssam günəş şüasının təsirindən abidə və onu əhatə edən təbiətdə əmələ gələn incə rəng keçidlərini, qızmar günəşli Naxçıvan üçün səciyyəvi olan parlaq koloriti sənətkarlıqla ifadə edə bilmişdir.

Rəssam təsvir etdiyi memarlıq abidələrini hava, işıq və məsafənin təsirindən doğan dəyişikliyi ilə ifadə etmək üçün yeni-yeni təsvir vasitələri tapmağa çalışmış və buna müvəffəq olmuşdur. Buna görə də, o, eyni abidəni bir neçə dəfə, həm də belə dəyişikliklərin daha qabarıq təzahür etdiyi vaxtlarda – dan yeri yenicə qızararkən, günəşin qızmaq vaxtında, gün batarkən çəkərdi. Məhz rəssamın "Möminə xatın türbəsi" ni təsvir etdiyi mənzərələri bu nöqteyi-nəzərdən xüsusilə fərqlənir.

Rəssam 1919-cu ildə "Atabəyin türbəsi", 1920-ci ildə "Mənzərə" adlı rəsmlər üzərində işləmişdir. Naxçıvanın köhnə məhəllələrindən boylanan rəssam yenə də "Möminə xatın türbəsi"ni diqqətimizə çatdırır. Akvarel texnikasında işlənən rəsmlərdə sənətkarı yenə də ötəri təəssürat məşğul etmir. Detallar tamaşaçının nəzərini parçalamır, əksinə rəsmlərə baxdığımız zaman diqqətimizi ilk olaraq "Möminə xatın türbəsi" çəkir.

"Atabəyin türbəsi" adlı rəsmdə abidə zənnimizcə sübh tezdən və yaxud qürub zamanı təsvir edilmişdir. Üfüqün arxasında gizlənmiş günəşin havaya yaydığı xəfif qızartı ətrafa sirayət edərək abidəni azca işıqlandırmış və onun siluetini üzə çıxarmışdır. Bütün yaradıcılığı boyunca yorulmadan çalışan Bəhruz bəy Kəngərli sevimli torpağının gözəlliklərini tərənnüm etmiş, Naxçıvanın tarixi tikililərini canlandıran müxtəlif mənzərə əsərləri yaratmışdır. Bu abidələr bir neçə dəfə, müxtəlif ölçü və texnikada, günün müxtəlif vaxtlarında, gah etüd, gah da tamamlanmış şəkildə işlənmişdir. Rəssam abidələrin ümumi görünüşünü, onların dekorativ bəzək elementlərini ustalıqla əks etdirmiş, abidələrin ətraf mənzərə ilə əlaqəsini, günün müxtəlif vaxtlarında günəş şüasının təsiri ilə rənglərinin dəyişməsini göstərməyə çalışmışdır.

Beləliklə, sənətkarın təsviri sənətimizdə başlanğıc sayıla biləcək bir addım ataraq doğma torpağındakı tarixi tikililəri tablolarına köçürməsi, sonralar rəssamlığın bu sahəsinin uğurla inkişaf etməsində də mühüm rol oynamışdır.

**Nəticə.** Müşahidələrimizdən belə nəticə çıxarırıq ki, rəssam bilavasitə naturadan çəkməyin mənzərə janrının inkişafında böyük əhəmiyyəti olduğunu dərk etmiş, yeni-yeni təbiət təsvirləri yaratmaq üçün doğma diyarın hər qarışını gəzmiş, orijinal və estetik mahiyyətə malik yeni mənzərə motivləri axtararaq diqqətini cəlb edən tarixi tikilini yerindəcə çəkib qurtarmağa çalışmışdır. Bəzən seçdiyi abidəni havanın dəyişməsi ilə əlaqədar olaraq əvvəlcədən müəyyənləşdirdiyi şərait və görünüşdə bir dəfəyə çəkib qurtara bilmədikdə, növbəti gün eyni saatda həmin yerdə işini davam etdirmiş, əsərini tamamlamışdır. Rəssam havadan, günəşin istiqamətindən asılı olaraq abidələrin rənglərini dəyişməsini və kəsb etdiyi formasını dərindən qavramaq üçün fasiləsiz işləmişdir. Bütün bu deyilənlər onu bir daha sübut edir ki, rəssamın işlərinin bir çoxunun təbiət təsviri olması heç də təsadüfi deyil. Qeyd etməliyik ki, rəssamın bu yaradıcılıq axtarışlarını, təbiəti dərindən öyrənmək təşəbbüsünü onun etüdçülüyə aludə olması kimi izah etmək yanlış yanaşma olar. Onun tarixi tikililəri əks etdirdiyi bu rəsmləri Azərbaycan incəsənətində yeni keyfiyyətli realist mənzərə janrının ilk görkəmli nümunələri kimi böyük əhəmiyyətə malikdir. Bəhruz bəy Kəngərli irsinin toplanmasını, öyrənilməsini, onun həyat və yaradıcılığının tədqiqi işini başa çatmış kimi zənn etmək səhv olar. Rəssamın indiyədək üzə çıxarılmamış əsərlərini axtarıb tapmaq, öyrənmək, onun haqqında yeni məqalələr nəşr etdirməklə rəssamın yaradıcılığını daha geniş təbliğ etmək vacib məsələlərdəndir.

## ƏDƏBİYYAT

1. Bəhruz Kəngərli. Albom-kataloq. Naxçıvan: Əcəmi, 2012, 201 s.
2. Bəhruz Kəngərli. Bakı: Şərq-Qərb, 2013, 104 s.
3. Bəhruz Kəngərli. Bakı: Çaşıoğlu, 2005, 80 s.
4. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 272 s.
5. Əliyev Z., Alıyev N. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan: Əcəmi, 2017, 512 s.
6. Kərimov K. Bəhruz Kəngərli. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının mətbəəsi, 1962, 105 s.
7. Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 344 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: wems.zal@mail.ru***

**Shamsiya Zalova**

## THE UNIQUENESS OF HISTORICALLY SIGNIFICANT LANDSCAPE PAINTINGS OF BAHRUZ BEY KANGARLI

Bahruz bey Kangarli, who was distinguished for his great talent and prolific creativity, opened a new path in the art of Azerbaijani painting, enriching it with new content, new forms, and new means of artistic expression. The artist worked in many genres of fine art and managed to demonstrate the uniqueness of his individual creativity through his works. The vast majority of Bahruz bey Kangarli’s artistic heritage consists of landscape paintings. Indeed, throughout his lifetime, the artist was influenced by the splendors of the Nakhchivan region and portrayed this enchanting locale in his artworks with utmost affection. The artist brought the depiction of nature out of the narrow framework in the history of Azerbaijani art and elevated it to the level of an independent and significant genre with his landscape creations. Historically significant landscapes of Bahruz bey Kangarli, such as “Tomb of Momine Khatun”, “Tomb of Noah”, “Old Castle”, “Mosque with a Broken Minaret”, are essential in their ideological content, directly reflect the characteristic social features and political events of the artist's life period.

**Keywords:** *Nakhchivan, Bahruz bey Kangarli, artist, landscape, architectural monuments.*

**Шамсия Залова**

## УНИКАЛЬНОСТЬ ИСТОРИЧЕСКИ ЗНАЧИМЫХ ПЕЙЗАЖНЫХ ПОЛОТЕН БАХРУЗ БЕКА КЕНГЕРЛИ

Бахруз бек Кенгерли, отличавшийся большим талантом и плодовитым творчеством, открыл новый путь в искусстве азербайджанской живописи, обогатив его новым содержанием, новыми формами и средствами художественного выражения. Художник работал во многих жанрах изобразительного искусства и сумел через свои произведения продемонстрировать уникальность своего индивидуального творчества. Подавляющую часть художественного наследия Бахруз бека Кенгерли составляют картины в жанре пейзажа. Ведь на протяжении всей своей жизни художник вдохновлялся чудесами Нахчыванского края и с большой любовью изображал это прекрасное место в своих произведениях. Таким образом, своими пейзажными творениями художник вывел изображение природы из узких рамок в истории азербайджанского искусства и возвел его на уровень самостоятельного и значимого жанра.

Исторически значимые пейзажи Бахруз бека Кенгерли, такие как «Гробница Момине Хатун», «Гробница Ноя», «Старый замок», «Мечеть со сломанным минаретом», чрезвычайно важны по своему идейному содержанию, непосредственно отражают характерные социальные особенности и политические события периода жизни художника.

**Ключевые слова:** *Нахчыван, Бахруз бек Кенгерли, художник, пейзаж, архитектурные памятники.*

*(AMEA-nın müxbir üzvü, professor Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 19.02.2025**
**Son variant 04.04.2025**